# ASTARA RAYONU ƏRAZİSİNDƏ KƏKLİKOTULU-LƏRGƏLİ-TOPALLIQ FORMASİYASININ MƏHSULDARLIĞI, YEM KEYFİYYƏTİ VƏ TUTUMU

**Sənubər Aslanova**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, aslanova17.02@mail.ru*

Formasiyanın bitki örtüyü Astara rayonu ərazisində meşə altından çıxmış dağ-qəhvəyi torpaqlarda, 8 №-li «Türkəsoba» yay (otarılmayan) otlaq sahəsində qeydə alınmışdır. Bu rayonun iqliminə xas havanın orta illik temperaturu 10-14°C, yağıntının illik miqdarı isə 1400-1600 mm-dir.

Araşdırmalar göstərir ki, bu formasiyanın bitki örtüyü müxtəlifotlu-paxlalı-taxılotuluq formasiya sinfinə aiddir. Həmin formasiya sinfinin kəklikotulu-lərgəli-topallıq formasiyasının 2019-2021-ci illərin yay fəsillərində məhsuldarlığı yaş kütlədə 19,5-29,6 s/ha, quru kütlədə 7,8-12,9 s/ha həddində dəyişmişdir (cədvəl 1). Hesablamalara görə, məhsuldarlığın yaş kütləsinin quru kütləsinə çevrilmə əmsalı 2,3-2,5-ə uyğundur.

1 saylı cədvəldən göründüyü kimi, kəkliotulu-lərqəli-topallıq formasiyasının orta illik məhsuldarlığı botaniki qruplar üzrə dəyişkəndir. Belə ki, 2019-cu ilin yayında 7,8 s/ha quru kütlədə taxılotlar 3,6 s/ha (46,1%), paxlalıotlar 2,7 s/ha (34,7%), müxtəlifotlar 1,5 s/ha (19,2%), 2020-ci ildə 10,2 s/ha-da – taxılotlar 6,1 s/ha (59,8%), paxlalıotlar 2,5 s/ha (24,5%), müxtəlifotlar 1,6 s/ha (15,7%), 2021-cü ildə 12,9 s/ha-da – taxılotlar 6,7 s/ha (51,9%), paxlalıotlar 3,8 s/ha (29,5%), müxtəlifotlar isə 2,4 s/ha (18,6%) həddində tərəddüd etmişdir.

**Cədvəl 1.** Astara rayonunun 8№-li «Türkəsoba» yay otlaq sahəsində yayılan *Thymuseta-Vicaetum-Festucosum* formasiyasının orta illik məhsuldarlığı

| İllər və aylar | Botaniki ot qrupları | Yaş kütlə | | Quru yeyilən kütlə | |
|---|---|---|---|---|---|
| | | s/ha ilə | %-lə | s/ha ilə | %-lə |
| 2019-cu il (10-20.VII) | Taxılotlar | 9,0 | 46,1 | 3,6 | 46,1 |
| | Paxlalıotlar | 6,8 | 34,9 | 2,7 | 34,7 |
| | Müxtəlifotlar | 3,7 | 19,0 | 1,5 | 19,2 |
| | Orta illik məhsuldarlıq | 19,5 | 100,0 | 7,8 | 100,0 |
| 2020-ci il (20-25.VII) | Taxılotlar | 15,2 | 59,6 | 6,1 | 59,8 |
| | Paxlalıotlar | 6,3 | 24,7 | 2,5 | 24,5 |
| | Müxtəlifotlar | 4,0 | 15,7 | 1,6 | 15,7 |
| | Orta illik məhsuldarlıq | 25,5 | 100,0 | 10,2 | 100,0 |
| 2021-ci il (25-30.VII) | Taxılotlar | 16,6 | 56,1 | 6,7 | 51,9 |
| | Paxlalıotlar | 7,3 | 24,7 | 3,8 | 29,5 |
| | Müxtəlifotlar | 5,7 | 19,2 | 2,4 | 18,6 |
| | Orta illik məhsuldarlıq | 29,6 | 100,0 | 12,9 | 100,0 |

2 saylı cədvəldən göründüyü kimi, kəklikotulu-lərgəli-topallıq formasiyasının üçillik orta məhsuldarlığı (10,1 s/ha), 100 kq quru yemdə yem vahidi (45,8 kq), fitosenozun istifadə müddəti (120 gün) və davarın (qoyun-keçilərin) gündəlik yem normasını (1,3 yem vahidi) nəzərə almaqla, hektarda 3,0 baş davar, ümumi sahədə (90 ha) isə otlaq tutumu (270 baş kiçik buynuzlu mal-qara otarmaq mümkündür) müəyyən edilmişdir.

Beləliklə, Lənkəranın dağlıq hissəsi ekosisteminin biomüxtəliflik üzrə məhsuldarlığı, yem keyfiyyəti və otlaq tutumuna dair apardığımız tədqiqatlardan bu qənaətə gəlirik ki, Yardımlı, Lerik və Astara rayonları ərazilərindəki yay otlaqlarının 35-40% sahələrinin səmərəsiz istifadəsi, tutumundan artıq otarılması səbəbindən məhsuldarlığı aşağı düşmüş və fitomüxtəlifliyi deqradasiyaya məruz qalmışdır.

**Cədvəl 2.** Bəzi bitki formasiyalarında 2019-2021-ci illərin yay fəsillərində fitosenozların istifadə müddəti, orta məhsuldarlığı, yem keyfiyyəti və otlaq tutumu

| s/s | Formasiyalar | İstifadə müddəti (günlə) | Orta məhsuldarlıq (yeyilən quru kütlədə) | 100 kq yem-də | | Hektarda otarılması mümkün olan kiçik buynuzlu mal-qaranın sayı (yükü) | Sahəsi (ha-la) | Otlağın tutumu |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | Yem vahidi | Mənimsənilən protein | | | |
| 1. | Kəklikotulu-şiyavlı-topallıq | 120 | 8,1 | 44,7 | 4,9 | 2,3 | 333 | 766 |
| 2. | Yoncalı-kəklikotulu-topallıq | 120 | 10,9 | 55,3 | 5,6 | 3,9 | 296 | 1154 |
| 3. | Kəklikotulu-lərgəli-topallıq | 120 | 10,1 | 45,8 | 4,6 | 3,0 | 90 | 270 |

Regionun təbii yay otlaqlarında fitosenozlarının qorunması, səmərəli (düzgün) istifadəsi və yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi məqsədəuyğundur.